

# Fəxrəddin TEYYUB-75

*Hörmətli Fəxrəddin Teyyub!*

*Sizi - tanınmış şairi 75 illik yubileyiniz münasibətilə təbrik edirik.*

*Siz 23 aprel 1950-ci ildə Lənkəran rayonunun Şıxakəran kəndində anadan olubsunuz. 1974-1980-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı (indiki İqtisad Universiteti) İnstitutunda qiyabi təhsil almısınız. 1994-1999-cu illərdə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında təhsilinizi qiyabi olaraq davam etdirmisiniz. Uzun illər Daxili işlər orqanlarında müxtəlif vəzifələrdə çalışmısınız. Polis polkovniki rütbəsində 2005-ci ildə təqaüdə göndərilmisiniz.*

*Siz bədii yaradıcılığa orta məktəb illərində başlamısınız. İlk şeiriniz 1972-ciildə rayon qəzetində dərc olunub. Sonralar əsərləriniz dövri mətbuatda, Yazıçılar Birliyinin ədəbi orqanlarında işıq üzü görüb.*

*Həsrətin ünvanı adlı ilk şeirlər kitabınız 2010-cu ildə çap edilib. Sonrakı illərdə "Kölgəm mənim yol yoldaşım", "Mən səninlə barışmaram", "Ruhların sevindiyi gün" adlı şeirlər kitablarınız işıq üzü görüb.*

*Şeirləriniz rus, Ukrayna, gürcü dillərinə tərcümə olunub, Türkiyə türkcəsində dərc edilib. Yaradıcılığınız Sərvaz Hüseynoğlunun "Yaşıl xatirədir ömrün hər günü" adlı kitabında geniş təhlilə cəlb edilib. Prezident təqaüdünə layiq görülübsünüz.*

*Hörmətli Fəxrəddin müəllim!*

*Sizi 75 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.*

**Azərbaycan Yazıçılar Birliyi**